İsrafil İsrafilov – 75

# Türk dünyasının tanınmış teatrşünası

**Milli Kitabxanada "Professor İsrafil İsrafilov" adlı kitab sərgisi istifadəçilərə təqdim olunub. Sərgi sənətşünaslıq doktoru, Teatr Tənqidçiləri Beynəlxalq Assosiasiyasının üzvü, Əməkdar incəsənət xadimi İsrafil İsrafilovun 75 illiyi münasibətilə açılıb.**

Alimin müəllifi olduğu əsərlər, tərtib və redaktə etdiyi kitablar Azərbaycan və rus dillərində ədəbiyyatlar sərginin rəflərində nümayiş olunur. İsrafil İsrafilov "Həyatın səhnəsi, səhnənin həyatı", "Düşündüklərim", "Zaman. Rejissor. Poetika", "Ədil İsgəndərovun teatrı", "Mehdi Məmmədovun rejissor sənəti", "Sən nə üçün yaşayırsan?" (rus dilində) adlı monoqrafiyaların müəllifidir. "Azərbaycan milli rejissor sənətinin poetikası" kitabını mütəxəssislər teatr nəzəriyyəsi sahəsində sanballı elmi tədqiqat əsəri kimi dəyərləndiriblər.



İsrafil Ramazan oğlu İsrafilov 1949-cu il sentyabr ayının 10-da Bakıda anadan olub. M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu (indiki Mədəniyyət və İncəsənət Universiteti) bitirib. Bakı şəhəri 1 May mədəniyyət sarayında bədii rəhbər, Akademik Milli Dram Teatrında truppa müdiri vəzifəsində çalışıb. Görkəmli rejissor Tofiq Kazımovla bir sıra tamaşaların hazırlanmasında, o cümlədən V. Şekspirin "Fırtına", M.S.Ordubadinin "Qılınc və Qələm", Anarın "Şəhərin yay günləri", M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah", A.Safronovun "Daşqın" əsərlərinin səhnə təcəssümündə rejissor kimi işləyib.

Sonralar Azərbaycan Dövlət İncəsənət İnstitutunda Tədris Teatrının direktoru, Azərbaycan KP MK-nın mədəniyyət şöbəsində təlimatçı, Azərbaycan Dövlət İncəsənət İnstitutunda elmi işlər üzrə prorektor, Azərbaycan Ədəbiyyatı və İncəsənət muzeylərinin direktoru vəzifələrində çalışdığı dövrlərdə özünü yenilikçi və təşəbbüskar ziyalı kimi tanıdıb.

İsrafil İsrafilov uzun illərdir ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərir, müvafiq proqramların, metodik vəsaitlərin və dərsliklərin müəllifidir. Səhnə sənətimizin ədəbi materialı olan dramaturgiya araşdırmalarına görə filologiya sahəsində fəlsəfə doktoru alimlik dərəcəsi alıb (1985), daha sonralar rejissor sənəti üzrə tədqiqatları ona sənətşünaslıq doktoru (2004) alimlik dərəcəsi qazandırıb.

Tanınmış alim Rusiya, İraq, Türkiyə, Gürcüstan, Səudiyyə Ərəbistanı, İran, Rumıniya, Küveyt, Avstriya, Cənubi Koreya kimi ölkələrdə keçirilən beynəlxalq simpozium və konfranslarda respublikamızın elmi ictimaiyyətini təmsil edib. Mədəniyyətin müxtəlif problemlərinə dair 300-dən çox məqaləsi mətbuatda dərc olunub.

"Teatr orqanizminin anemiyası haqqında" məqaləsi onun bu sahəyə necə özəl münasibət bəslədiyini göstərir: "Bu gün müstəqillik həyatından güc alan ədəbiyyat və sənət milli-mənəvi dəyərləri yeni dövrün yeni insanlarının əldə etdiyi misilsiz nemət kimi uca tutur, onu bədii yaradıcılığının başlıca ideya-estetik mənası hesab edir. Odur ki, yeni, müstəqil Azərbaycanın poeziyası, nəsri kimi, dramaturgiyası da bütün əvvəlki məhdudiyyət çərçivələrini qırıb, prinsipcə tamamilə yeni yaradıcılıq üfüqlərinə üz tutub, mövzu, problematika, konflikt elementləri ilə bərabər bəşəri qayğılarla yaşayan, zəngin mənəvi aləmində multikultural dəyərlər bəsləyən bədii surətlər yaratmaq səyləri ilə daha mənalı görünmək iddiasındadır".

Bir neçə il əvvəl İsrafil İsrafilov Türkdilli ölkələrin Dövlət Teatrları Şurasının sədri seçilib. O, həmçinin İstanbulda keçirilən mərasimdə Türk dünyasının "Ən yaxşı teatr tənqidçisi" mükafatına layiq görülüb.

***Ə.ƏLİYEV***
***XQ***